## Ürəklərdə nuru qaldı...

Azərbaycanın teatr və kino sənətinin səmasından bir ulduz axıb keçdi. Yaddaşlarda, ürəklərdə nuru qaldı. Bir də bizim hamımızın - onun sənətinin işığını hiss edənlərin, yaratdığı obrazları sevənlərin ona əbədi bir minnətdarlıq borcu.

Səhnə yaradıcılığına 1970-ci illərdə başlayan Yaşar Nuri o dövrün olduqca hərəkətli və dinamik teatr mühitində özünün qeyri-adi istedadı və səmimiyyəti ilə seçilməyi bacardı, heç kəsə bənzəməyən bir sənət yolu açdı... 1974-cü ilin sonlarında Akademik Milli Dram Teatrının baş rejissoru Tofiq Kazımovun dəvətilə bu kollektivin aktyor truppasına qəbul olundu. Milli Dram Teatrında işlədiyi gündən ömrünün sonunadək bir çox tamaşalarda əsas rolları ifa etdi.

Teatr aktyoru kimi görkəmli sənətkar olan Yaşar Nuri həm də məşhur kino ustasıdır. Onun böyük populyarlıq qazandığı çoxlu ekran obrazları var. Əlliyə yaxın bədii filmə çəkilib.

Yaşarın obrazlar kolleksiyasından söz açdıqda onun «Yaramaz»dakı Maşallahını, «Lətifə»dəki Məmmədini, «Qətl günü»ndəki Mahmud doktorunu, «Nə gözəldir bu dünya...»dakı Asim Əliyeviçi, «Səni axtarıram»dakı Elçin, «Hər şey yaxşılığa doğru», «Nakəs», «Fransız», «Yoxlama» filmlərindəki bir-birindən maraqlı və yaddaqalan rollarını mütləq xatırlamalıyıq. Bu rolları tamaşaçılara sevdirən də məhz aktyorun böyük sənətkarlıq istedadı və sonsuz zəhmətidir.

Yaşar Nuri Azərbaycan Dövlət Televiziyasında hazırlanmış yüzdən çox tamaşada, bədii kompozisiyada, satirik səhnəciklərdə iştirak edib. Onun əsasən baş rolları ifa etdiyi teletamaşalar televiziyanın fondunda daimi sənət nümunələri kimi qorunur. Bunlardan Ramiz Həsənoğlunun hazırladığı Ruhəngiz Qasımovanın «Yollar görüşəndə...», «Ömrün yolları», İsi Məlikzadənin «Qatarda», Anarın «Evləri köndələn yar», Mövlud Süleymanlının «Kökdən düşmüş piano», Hüseyn Cavidin «Topal Teymur», Aslan Qəhrəmanovun əsərləri əsasında Tariyel Vəliyevin lentə aldığı «Səni axtarıram», «Bağışla», «Səndən xəbərsiz» trilogiyası, İslam Səfərlinin «Göz həkimi», Əbdürrəhim bəy Haqverdiyevin əsərləri əsasında «Ac həriflər» və s. televiziya tamaşalarını misal göstərmək olar.

Vaxtilə böyük şairimiz Səməd Vurğunun dahi bəstəkarımız Üzeyir Hacıbəylinin vəfatı münasibətilə yazdığı misralar Yaşar Nuri sənətini sevənlər üçün də bir təsəlli qaynağı ola bilər:

*Ölüm sevinməsin qoy! Ömrünü vermir bada*
*El qədrini canından daha əziz bilənlər.*
*Şirin bir xatirətək qalacaqdır dünyada*
*Sevərək yaşayanlar, sevilərək ölənlər...*